Mədəniyyət.- 2023.- 5 iyul. S. 2.

# Yeni regional mədəniyyət idarələrinin strukturu təsdiqlənib

Xəbər verdiyimiz kimi, Mədəniyyət Nazirliyinin strukturuna daxil olan regional mədəniyyət idarələri yenidən təşkil edilib.

Bununla əlaqədar Prezident İlham Əliyev tərəfindən 23 fevral 2023-cü il tarixində sərəncam imzalanıb. Sərəncama əsasən, Azərbaycan Respublikasının iqtisadi rayonlarının yeni bölgüsünə (2021) uyğun olaraq, nazirliyin Sumqayıt, Xaçmaz, İsmayıllı, Şəki, Kürdəmir, Ağstafa, Şəmkir, Gəncə, Bərdə, Ağcabədi, Ağdaş, Sabirabad, Biləsuvar, Masallı və Lənkəran regional mədəniyyət idarələri əsasında Abşeron-Xızı, Dağlıq Şirvan, Gəncə-Daşkəsən, Qarabağ, Qazax-Tovuz, Quba-Xaçmaz, Lənkəran-Astara, Mərkəzi Aran, Mil-Muğan, Şəki-Zaqatala, Şərqi Zəngəzur və Şirvan-Salyan regional mədəniyyət idarələri yaradılıb.

Xatırladaq ki, Mədəniyyət Nazirliyi sistemində regional idarələr ilk dəfə 2016-cı ildə yaradılmışdı. Dövlət başçısı həmin ilin 29 martında “Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin strukturuna daxil olan regional mədəniyyət idarələrinin yenidən təşkili və “Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin strukturunun təkmilləşdirilməsi haqqında” sərəncam imzalamışdı. Həmin sərəncamla Mədəniyyət Nazirliyinin rayon-şəhər şöbələri ləğv edilmiş və 15 regional idarə, həmçinin Bakı şəhəri üzrə baş idarə yaradılmışdı. Regional idarələr 2017-ci ilin yanvarından fəaliyyətə başlamışdı.

Sərəncama uyğun olaraq, Mədəniyyət Nazirliyi tərəfindən yeni regional mədəniyyət idarələrinin strukturu və əsasnamələri təsdiqlənib.

Qeyd edək ki, Prezident İlham Əliyevin 7 iyul 2021-ci il tarixli fərmanı ilə Azərbaycan Respublikasının iqtisadi rayonlarının yeni bölgüsü təsdiq edilib.

Yeni bölgü 14 iqtisadi rayonu əhatə edir. Bakı iqtisadi rayonu (Bakı şəhəri) və Naxçıvan iqtisadi rayonundan (Naxçıvan şəhəri, Babək, Culfa, Kəngərli, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonları) savayı 12 iqtisadi rayonun əhatə dairəsi aşağıdakı kimidir:

Abşeron–Xızı iqtisadi rayonu (Sumqayıt şəhəri, Abşeron və Xızı rayonları); Dağlıq Şirvan iqtisadi rayonu (Ağsu, İsmayıllı, Qobustan və Şamaxı rayonları); Gəncə–Daşkəsən iqtisadi rayonu (Gəncə və Naftalan şəhərləri, Daşkəsən, Goranboy, Göygöl və Samux rayonları); Qarabağ iqtisadi rayonu (Xankəndi şəhəri, Ağcabədi, Ağdam, Bərdə, Füzuli, Xocalı, Xocavənd, Şuşa və Tərtər rayonları); Qazax–Tovuz iqtisadi rayonu (Ağstafa, Gədəbəy, Qazax, Şəmkir və Tovuz rayonları); Quba–Xaçmaz iqtisadi rayonu (Xaçmaz, Quba, Qusar, Siyəzən və Şabran rayonları); Lənkəran–Astara iqtisadi rayonu (Astara, Cəlilabad, Lerik, Lənkəran, Masallı və Yardımlı rayonları); Mərkəzi Aran iqtisadi rayonu (Mingəçevir şəhəri, Ağdaş, Göyçay, Kürdəmir, Ucar, Yevlax və Zərdab rayonları); Mil–Muğan iqtisadi rayonu (Beyləqan, İmişli, Saatlı və Sabirabad rayonları); Şəki–Zaqatala iqtisadi rayonu (Balakən, Qax, Qəbələ, Oğuz, Şəki və Zaqatala rayonları); Şərqi Zəngəzur iqtisadi rayonu (Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın və Zəngilan rayonları); Şirvan–Salyan iqtisadi rayonu (Şirvan şəhəri, Biləsuvar, Hacıqabul, Neftçala və Salyan rayonları).